

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 217 (23.128)

14 noyabr 2018-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Slovakiya Respublikasının Baş naziri Peter Pelleqrini ilə görüşüb.

Prezident İlham Əliyev Peter Pelleqrininin Baş nazir kimi ilk dəfə Azərbaycana səfər etməsindən və bu yüksək vəzifəyə təyin olunduğu az vaxtdan sonra ölkəmizə gəlişindən məmnunluğunu bildirib. Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan-Slovakiya münasibətləri ölkəmizin Avropa İttifaqı ilə əməkdaşlığının inkişafı baxımından da önəmlidir. Prezident İlham Əliyev bu ilin iyulunda Azərbaycan ilə Avropa İttifaqı arasında Brüsseldə paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədini Avropa İttifaqı tərəfindən Azərbaycanla əlaqələrə verilən önəmin göstəricisi kimi dəyərləndirib.

Slovakiya Respublikasının Baş naziri Peter Pelleqrini bundan əvvəl parlament spikeri vəzifəsində çalışarkən Avropa Oyunları zamanı ölkəmizə gəldiyini vurğulayıb. Qonaq ölkələrimiz arasında ikitərəfli münasibətlərə toxunaraq bu səfəri zamanı Bakıda keçirilən Azərbaycan-Slovakiya biznes-forumunun önəmini qeyd edib və bunun iqtisadi sahədə əməkdaşlığımızın genişlənməsi işinə öz töhfəsini verəcəyini vurğulayıb.



## Norveçli diplomat muxtar respublikanın təhsil, səhiyyə, mədəniyyət müəssisələri və tarixi abidələri ilə tanış olub

***Norveç Krallığının ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili Olav Nils Thue noyabrın 12-13-də Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində muxtar respublikanın təhsil, səhiyyə, istehsal, mədəniyyət müəssisələri və tarixi abidələri ilə tanış olub.***

Əvvəlcə qonaq ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstələri qoyub, Heydər Əliyev Muzeyini ziyarət edib.

Səfər çərçivəsində Olav Nils Thue Naxçıvan Biznes və Duzdağ Fizioterapiya mərkəzləri ilə tanış olub. Naxçıvan Dövlət Universitetinə gələn qonağa ali təhsil ocağı barədə ətraflı məlumat verilib, universitetlərarası gələcək tərəfdaşlıq imkanları müzakirə olunub. Naxçıvan Avtomobil Zavodunun, "Gəmiqaya Mineral Sular", "Gəmiqaya Mebel Fabriki" və "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli cəmiyyətlərinin istehsal prosesləri ilə tanışlıq qonaqda böyük təəssürat yaradıb.



Diplomat Naxçıvan Günəş Elektrik Stansiyasının fəaliyyəti ilə maraqlanıb, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksini ziyarət edib. Səfər müddətində Naxçıvan Dövlət Xalça Muzeyi, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi və "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi ilə tanış olan qonağa həmin mədəniyyət ocaqları barədə ətraflı məlumat verilib.

`"Şərq qapısı" qəzetinə müsahibəsində səfər təəssüratları barədə danışan Norveç Krallığının ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili bildirib ki, Naxçıvanda olduğum iki gün ərzində yüksək səviyyəli görüşlər keçirdim, qədim diyarın iqtisadi potensialı və tarixi-mədəni abidələri ilə tanış oldum, geniş məlumat əldə etdim. Hesab edirəm ki, bu gözəl məkana səfərim çox səmərəli keçdi.



Qonaq deyib: "Naxçıvanın güclü iqtisadi potensiala malik olması, burada son illərdə əldə edilən nailiyyətlər, sözün açığı, məni çox təsirləndirdi. Mən bu qədim diyardan çox xoş təəssüratlarla ayrılıram, göstərilən qonaqpərvərliyə və diqqətə görə minnətdarlığımı bildirirəm".

Olav Nils Thue vurğulayıb ki, Naxçıvan haqqında daha zəngin məlumatlar əldə etmək məqsədilə buraya bir daha gəlmək arzusundayam.

**Xəbərlər şöbəsi**

## Seminar keçirilib



*Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən "Naxçıvan Muxtar Respublikası rayon (şəhər) İcra hakimiyyətlərinin aparatlarında sənədlərlə işin aparılması və vətəndaşların müraciətlərinə baxılması qaydaları" mövzusunda seminar keçirilib.*

Seminarda muxtar respublikanın rayon (şəhər) İcra hakimiyyəti orqanlarının Sənədlərlə və vətəndaşların müraciəti ilə iş şöbəsinin müdirləri və kargüzarlıq işi üzrə məsul olan əməkdaşlardan ibarət 20 dövlət qulluqçusu iştirak edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri İsmayıl Qəribli seminarı giriş sözü ilə açaraq bildirib ki, dövlət orqanlarının fəaliyyəti sənədləşmədə öz əksini tapır. Bu mənada, kargüzarlıq dövlət orqanlarının fəaliyyətlərinin güzgüsüdür. Kargüzarlıq sisteminin qurulması dövlət orqanlarının səmərəli fəaliyyət göstərməsinə və idarəetmə qərarlarının vaxtında qəbul edilməsinə səbəb olur. Bu baxımdan dövlət orqanlarında kargüzarlığın düzgün təşkil edilməsi mühüm əhəmiyyət kəsb edir. Lakin bir sıra hallarda sənədlərin hazırlanmasında nöqsanlar müşahidə olunur. Bugünkü seminarın məqsədi kargüzarlıq fəaliyyəti ilə bağlı qanunvericiliyin tələblərinin bu sahə üzrə məsul olan dövlət qulluqçularının diqqətinə çatdırılmasıdır.

Seminarda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Ümumi şöbəsinin müdiri İlkin Abdullayev "Dövlət orqanlarının kargüzarlıq xidməti əməkdaşlarının qarşısında duran vəzifələr" mövzusunda çıxış edib. Qeyd olunub ki, cari ilin oktyabr ayında kargüzarlığın aparılmasına nəzarət məqsədi ilə muxtar respublikanın rayon (şəhər) İcra hakimiyyəti orqanlarının kargüzarlıq xidmətlərində sənədləşmə qaydalarına baxışlar keçirilib və bir sıra nöqsanlar aşkar edilib. Qeydiyyat jurnallarının və qeydiyyat-nəzarət vərəqələrinin doldurulmasında, kartotekalardan düzgün istifadə edilməsində yol verilən nöqsanlar üzə çıxarılıb. Yoxlamalar zamanı təlimatın tələblərinə riayət edilməsinin zəruriliyi diqqətə çatdırılıb və metodik köməklik göstərilib.

Sonra komissiyanın Mühasibat və ümumi işlər sektorunun müdiri Türkan Gülməmmədli slaydlar vasitəsilə dövlət orqanlarında kargüzarlığın aparılması işi, o cümlədən sənədlərin hazırlanması, qeydiyyatı, hərəkəti, icrası, uçotu və arxivə verilməsi, habelə vətəndaşların müraciətlərinin qəbulu və qeydiyyata alınması, müraciətlərə baxılması və cavablandırılması, vətəndaşların qəbulunun təşkil edilməsi, müraciətlərlə bağlı sənədlərin qovluqlaşdırılması və saxlanılması qaydaları barədə məlumat verib.

Sonda iştirakçıları maraqlandıran suallar ətraflı cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

***Naxçıvan Dövlət Texniki Kollecində keçirilən konfransı Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov açıb.***

## "Dövlət İmtahan Mərkəzinin fəaliyyəti: imtahanlara dövlət və ictimai nəzarətin vəhdəti" mövzusunda konfrans



Bildirib ki, konfransın keçirilməsində əsas məqsəd Dövlət İmtahan Mərkəzinin fəaliyyəti ilə tanışlıq, 2019-cu ildə keçiriləcək qəbul və buraxılış imtahanlarının modelləri, mərkəzin həyata keçirdiyi tələbə qəbulu, dövlət qulluğuna qəbul və digər kampaniyaların idarə olunmasında dövlət, ictimaiyyət nümayəndələrinin iştirakı haqqında məlumat verməkdir.

Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurası sədrinin müavini Namiq Babayev çıxış edərək mərkəzin fəaliyyəti haqqında ətraflı məlumat verib. Qeyd edilib ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli Fərmanı ilə Tələbə Qəbulu üzrə Dövlət Komissiyası və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın bazasında Dövlət İmtahan Mərkəzi yaradılıb. Mərkəz biliyin qiymətləndirilməsi üzrə 26 illik təcrübəyə malikdir. Bu gün Dövlət İmtahan Mərkəzi ali təhsilin və dövlət qulluğunun müxtəlif sahələrində yüksək əhəmiyyətli qəbul imtahanları və digər prosedurları həyata keçirir. Aparılan tədbirlərin yüksək ictimai əhəmiyyəti nəzərə alınaraq mərkəzin fəaliyyətində şəffaflıq və ictimai nəzarət tam şəkildə təmin olunub.

Tədbirdə Dövlət İmtahan Mərkəzinin əməkdaşları təqdimatlar ediblər. Mərkəz tərəfindən həyata keçirilən imtahanlar, imtahanların təşkili və idarə edilməsi məqsədilə aparılan hazırlıq işləri və fəaliyyət istiqamətləri, 2018-ci ildə keçirilən imtahanlara dair ümumi statistik məlumatlar, mərkəzin təqdim etdiyi elektron xidmətlər, buraxılış imtahanlarında yazı işlərinin yoxlanılması texnologiyasının üstünlükləri barədə ətraflı məlumat verilib. Konfransda, həmçinin imtahanlarda istifadə olunan materialların hazırlanma prosesindən, imtahana hazırlaşanlar üçün nəşr olunan elmi-metodik vəsaitlərdən, elektron informasiya ehtiyatlarının yaradılmasından, dövlət qulluqçularının reyestri xidmətindən, dövlət qulluğu sahəsində görülən işlərdən, dövlət qulluğuna qəbul üzrə keçirilən müsabiqə və müsahibələrdən də bəhs olunub.

Tədbirin sonunda Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən imtahanlarda fərqlənmiş nəzarətçi-müəllimlər fəxri fərmanla təltif ediliblər.

Qeyd edək ki, konfransda muxtar respublikanın ali təhsil müəssisələrinin, kolleclərin, təhsil şöbələrinin nümayəndələri, imtahan rəhbərləri və nəzarətçi-müəllimlər iştirak ediblər.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*İbrahim Səfiyev – 120*

# Müasir türk rəssamlığında ən zəngin və məhsuldar yaradıcılığa malik naxçıvanlı rəssam

## *Türkiyəli gənc tədqiqatçı ilə müsahibə*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin oktyabr ayının 17-də imzaladığı "Görkəmli rəssam İbrahim Səfiyevin 120 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam bir neçə ay bundan əvvəl Türkiyədə bir tədqiqatçıdan aldığım, telefonumda səsyazma şəklində duran müsahibəni mənə xatırlatdı. Həmin müsahibəni hazırlayıb oxuculara təqdim etmək qərarına gəldim. Qeyd edim ki, bu ilin may ayında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə Türkiyədə Əskişəhərdə keçirilən "100-cü ilində Azərbaycan Cümhuriyyəti" beynəlxalq konqresində məruzə etdikdən sonra daha bir mövzu diqqətimi xüsusilə çəkmişdi: "Çağdaş türk rəsmində azərbaycanlı rəssam İbrahim Safi fırçasından Şərq müşahidələri". Məruzəçi Rumeysa İşıq Yaylanın tədqiqatında naxçıvanlı rəssam İbrahim Səfiyevdən söhbət açılırdı. Yeni faktlarla dolğun və bitkin tədqiqat idi. Sakarya Universitetində Fənn-Ədəbiyyat fakültəsinin Sənət tarixi kafedrasında elmi işçi kimi çalışan Rumeysa xanımın məruzəsindən yola çıxaraq onunla müsahibəyə başladıq:***



*İbrahim Səfiyev ailəsi ilə birlikdə*

***– Rumeysa xanım, necə oldu ki, rəssam İbrahim Səfiyevlə bağlı belə bir tədqiqat aparmaq qərarına gəldiniz?***

– Əvvəla, qeyd edim ki, Azərbaycan dost və qardaş ölkə kimi türk gəncliyinin, xüsusilə də elmi araşdırmalarla məşğul olanların ən çox maraq göstərdiyi ölkədir. Mən də bu baxımdan istisna deyiləm. Bu da ondan irəli gəlir ki, uzun illər bir-birimizdən ayrı düşmüşük. Bizi bizə unutdurmağa çalışıblar. Azərbaycanın təkrar öz müstəqilliyini əldə etməsi bu dostluq və qardaşlıq əlaqələrinin də möhkəmləndirilməsinə vəsilə olub. Biz gənc tədqiqatçılar da Azərbaycanın mədəniyyətini öyrənməyə çalışır, istəyirik ki, gələcək nəsillərə bu barədə kifayət qədər məlumat əmanət edə bilək.

Bu tədbirə qatılmaq istəyərkən mən İbrahim Səfiyevin əsərlərindəki Şərq izləriylə bağlı məruzə hazırlamağı qərarlaşdırdım. Əvvəla, qeyd edim ki, Türkiyədə biz onu İbrahim Safi kimi tanıyırıq. Azərbaycandan, xüsusilə onun Türkiyə ilə sərhəddə yerləşən Naxçıvan Muxtar Respublikasından olduğunu bilirik. İxtisasıma aid olduğu üçün rəssamın Türkiyənin ayrı-ayrı muzeylərindəki, sərgi salonlarındakı əsərləri diqqətimi çəkdi və bunları tədqiq etməyə başladım.

***– Maraqlıdır, bir türkiyəli gənc tədqiqatçı üçün kimdir İbrahim Səfiyev?***

– Qafqazlardan Anadoluya uzanan bir həyatı, təxminən, yetmiş ilə qədər yaradıcılığı ilə sənət dünyasında qabiliyyətli bir professional kimi özünü təsdiqləyən bir rəssamdır İbrahim Səfiyev. Bu məşhurluğunu kiçik yaşlarından aldığı sənət təhsilinə borcludur. 1898-ci ildə Azərbaycanın Naxçıvan Muxtar Respublikasında – Şərur rayonunun Cəlilkənd kəndində dünyaya gəlib. Əsl adı Rahman olan İbrahim Səfiyev 3 yaşında atasını itirir. Bu talesizliyə baxmayaraq, içində yaşatdığı sənət eşqi onu hələ uşaqlıq illərindən rəssamlığa istiqamətləndirir.

İlk təhsilini Naxçıvanda alıb. Daha sonra İrəvan Müəllimlər Seminariyasında rəsm müəllimi Kolssa sayəsində bu istedadını daha da inkişaf etdirib. Sonrakı illərdə təhsilini Moskvada İncəsənət Akademiyasında davam etdirmək arzusu ilə bir il xüsusi bir məktəbdə hazırlaşıb. 1913-cü ildə Moskva Akademiyasında qeydiyyatdan keçib. Təəssüf ki, akademiyanın hazırlıq sinfində oxuyarkən I Dünya müharibəsi başlayır. Rusiyada baş verən çevrilişdən sonra Qafqaz cəbhəsində döyüşən türk ordusu ilə 1918-ci ildə ailəlikcə İstanbula köçür. Yarımçıq qalan təhsilini 1923-cü ildə İstanbulda İncəsənət Akademiyasında uğurla tamamlayır. İbrahim Səfiyev akademik rəssamlıqdan uzaq düşməmək üçün 1930-cu illərə qədər müəllimi Namiq İsmayılın emalatxanasında qonaq tələbə olaraq sənətini davam etdirir. Burada uşaqlıqdan bəri içində yaşatdığı rəssamlıq eşqini fərqli mədəniyyətlərə sahib bir sənət mühiti ilə birləşdirərək rəsmlər çəkir.

Bu müddətdə bolşeviklərdən qaçaraq Türkiyəyə üz tutan və rəssamlıq sahəsində böyük uğurlar əldə edən rus rəssamlarının əsərlərini də yaxından izləyir. Hətta 1936-cı ildə rəssam Naci Kalmukoğlu ilə dostlaşır, onunla birlikdə işləyir, bir çox uğurlara birlikdə imza atır, hətta yaxın dostu ilə Türkiyədə və xaricdəki sərgilərə qatılır. İzmir pavilyonlarının bu gün də yaşayan dekor və naxış işlərində də birgə iştirak edirlər. Bu məhsuldar yaradıcılıq tempinə 1942-ci ildə əsgərlik xidmətinə görə bir müddət ara verən gənc rəssam həmin illəri böyük çətinliklər və yoxsulluqlar içində yaşayır. Lakin rəssamlığa olan bağlılığını və məhsuldarlığını heç bir zaman itirmir, bundan sonrakı həyatını fırçası ilə təmin etməyə nail olur. İbrahim Səfiyev istər Türkiyə daxilində, istərsə də xaricdə keçirdiyi saysız-hesabsız sərgiləri ilə qısa müddətdə "çağdaş Türkiyə rəssamlığının ən çox əsər yaradan rəssamı" səviyyəsinə yüksəlir. Əsərlərində sənətinin ilham qaynağı olan təbiətdən yola çıxaraq işlədiyi mövzuları müşahidəçilik qabiliyyəti ilə dəyərləndirən sənətkar bu zaman Şərqə olan meylini tablolarında Qərb rəssamlarının üslubuna oxşarlıqla əks etdirir.

***– Bir sənətşünas-tədqiqatçı kimi İbrahim Səfiyevin sənət anlayışı və üslubunu necə dəyərləndirirsiniz?***

– Professor Ənvər Tali Çətin vaxtilə çox yaxın dostu olan İbrahim Səfiyevin kolleksiyasındakı rəsmlərdən seçib hazırladığı kitabında sənətkarla müsahibəsini də verib. Orada rəssam bildirir ki, "Qafqazda insanlar əsərlərimə qarşı böyük maraq vardır. Qızlar rəngbərəng xalçalarda arzularını, diləklərini naxışlara çevirərkən, oğlanlar həsir, ağacoyma kimi el sənətkarlığı ilə məşğul olardılar. Bütün bu gözəlliklər addım-addım məni rəssamlığa yönləndirdi. Ətrafımdakı akademiya məzunları, müəllimlərim məni dəstəkləyir, gələcəkdə yaxşı bir rəssam olacağımı söyləyirdilər. Mən də rus rəssamı Repinin əsərlərini bəyənir, gələcəkdə onun kimi bir rəssam olmağı çox istəyirdim". Buradan da göründüyü kimi, İbrahim Səfiyevin sənətinin, sənətə baxışının və sənət anlayışının əsasları hələ İstanbula gəlməmişdən əvvəl qoyulmuşdu.




*İstanbul İncəsənət Akademiyasına qonaq tələbə qismində giriş-çıxış üçün verilən vəsiqə*

***– Bəs İstanbuldakı müəllimi Namiq İsmayılın onun yaradıcılığına nə dərəcədə təsiri olub?***

– Danılmaz dərəcədə çox. Çünki İbrahim Səfiyev hər yeni əsərində öz mədəniyyətinə məxsus dəyərləri, yüksək müşahidəçi gücü ilə və müasir bir üslubda tamaşaçıya yenidən təqdim etməyi ondan öyrənmişdir. Belə bir şəraitdə özünü hərtərəfli inkişaf etdirmiş, müraciət etdiyi hər mövzunun texniki və təqdimat fərqliliyində belə, müəllimi kimi özünəməxsusluğuna sadiq qalmışdır.



***– Onun əsərlərinin janr özəllikləri barədə nə deyə bilərsiniz?***

– İbrahim Səfiyev rəsmlərini peyzaj, natürmort, portret və kompozisiya kimi dörd əsas janrda işləsə də, əslində, bu əsərlərdə təbiət və küçə mənzərələri ilə şəhər görüntüləri daha çox üstünlük təşkil edir. O, müxtəlif zamanlarda İstanbul mövzusunda ən çox işləyən rəssamlardan biri olaraq şöhrət qazanmışdır. Xüsusən də şəhərin bir-birindən fərqli yerləri onun molbertində görüntülü bir sənət keyfiyyəti qazanmışdır. Məsələn, Boğaziçi təpələri, Qaraköy mənzərələri, Beşiktaş limanı, Qalata körpüsü, küçələr, məscidlər, taxtadan tikilmiş evlər, ictimai yerlər İstanbulu rəsmlərində sanki yaşayan bir şəhər halına çevirmişdir.

***– Çıxışınızda İbrahim Səfiyevin müşahidələrinin əks edildiyi Şərq mədəniyyətinə xas olan nüanslar üzərində də dayandınız, nümayiş etdirdiyiniz slaydlardan da rəssamın yaradıcılığında mədəniyyətlərin qovuşduğu şəhər olan İstanbulun xüsusi yer tutduğu diqqətdən qaçmadı...***

– Müasir Türkiyə rəssamlığında əvvəllər sənət, sadəcə, bir mərkəzdən idarə olunurdu. Sonralar müxtəlif istiqamətlərdə inkişaf özünü göstərdi və bu zaman fərqli üslublarda əsərlər yaradan Şefik Bursalı, Sabiha Bozcalı, Ərən Əyyuboğlu, Şükriyə Dikmən, Həmid Görələ və Naci Kalmukoğlu kimi rəssamlar ortaya çıxdı. Lakin çağdaş türk sənət anlayışından heç bir vaxt ayrılmayan, həm müşahidəçi, həm də klassik və süjetli əsərləri ilə diqqətçəkən, bu sahədə özünəməxsus bir üslub ortaya qoyan və müstəqil şəkildə işləyən rəssamlara İbrahim Səfiyev başçılıq etməyə başladı.

İstanbulun, sadəcə, mənzərəli görüntüsünü deyil, eyni zamanda insanların yaşayış tərzi və adət-ənənələrinin sərgiləndiyi qəhvəxanaları, yaşıllıq əraziləri, musiqili əyləncəli məkanları, hamam, çeşmə, meydan, saray həyatını xatırladan səhnələri, Şərq mədəniyyəti və yaşayış tərzini detallarıyla verən bu rəssam şəhərin yoxa çıxmış digər tərəfini təqdim etməyi də unutmamışdır. Xüsusilə də bəzi Şərq meyilli Qərb rəssamlarının üslubunu xatırladan, uzun illərdir, yaşadığı bu şəhəri olduğu kimi rəsmə çevirə bilmək yerinə, həm də xəyal gücünü də hərəkətə gətirərək Şərq xarakterini müasir bir üslub içərisində əritməyə nail olmuşdur. Zamanın təqdim etdiyi bu keyfiyyətləri qiymətləndirən rəssam yaxın keçmişin sosial dəyişiklikləri arasında tarixləşən və ya qədim mədəniyyətə şahidlik edən səhnələri real boyalarla tamaşaçısına çatdırmışdır.

İbrahim Səfiyevin bu istiqamətdə seçmiş olduğu sənətkarlıq ünsürlərindəki Şərq xarakteri, əslində, onun üslubundakı keçmişə məxsus dəyərlərin əks olunmuş halıdır. Bunu rəssamın Osmanlı mədəniyyətinin izlərindən qaynaqlanan tablolarında görürük. Lakin aradan uzun bir müddət keçməsinə baxmayaraq, sənətkar həmin mövzudakı kompozisiyalarında böyük dəyişiklik etmədən Şərq mədəniyyətinə də müraciət etmişdir. Saray həyatına məxsus bu səhnələrdə Şərq dünyasının simvolik görüntüsünü bütün ehtişamıyla gözlər önünə sərmiş, təsvir edilən mövzuya uyğun şəraiti isə real bir rəssamlıq dili ilə ifadə etməyə çalışmışdır.

***– Sizin təqdim etdiyiniz rəsmlərdən rəssamın həm də böyük bir yaradıcı xəyal gücünə sahib olduğunu müşahidə etmək mümkündür...***

– Klassik və süjetli bir istiqamətdə müşahidəçi düşüncəsi ilə birləşdirdiyi estetik yöndə, zamanla xəyal gücünün üstünlük təşkil etdiyi bir üslubda əsərlər yaradan İbrahim Səfiyev bitkin ifadə gücünü sahib olduğu mükəmməl bir texnika ilə birləşdirmişdir. Beləliklə də, kompozisiyalarında güclü fırça toxunuşlarını, işıq və kölgə oyunlarını görürük. Bu istiqamətdə özünəxas süjet təqdimatı formalaşdıran, lakin akademik rəssamlığın naxış məfhumundan heç bir zaman vaz keçməyən bir sənətkar boylanır onun rəsmlərindən. Rəng harmoniyasına hakimliyi, işıqdan ustalıqla istifadə etməsi və kompozisiyalarının hərəkətli olması onu tanınmış rəssama çevirmiş, get-gedə özünü də geridə qoyan bir rəssamlıq bacarığı nümayiş etdirərək davamlı yeni axtarış və sıçrayışlarla sənətini davam etdirməyə nail olmuşdur. Onun rəsmlərində sarı və narıncı tonlarla verilən işıqlar, bənövşəyi və mavi rənglərlə qabarıq göstərilən kölgələr, çəhrayı, qırmızı və qırmızımtıl rəngə qədər uzanan göy üzü və buludlar diqqəti cəlb edir. Ümumiyyətlə, o, işıqlı rənglərlə düşüncələri ifadə etməyə üstünlük verib. Bu özünəməxsus üslub hər nə qədər realist bir istiqamət götürsə də, əslində, fiqurlarla hərəkətləndirdiyi xəyali məkanlar sayəsində abstrakt kompozisiyalar əldə etməyə çalışmışdır. Bu cür mənalandırmalar həm tamaşaçının xəyal gücünü hərəkətə gətirir, həm də bu günə qədər gəlib çatan dəyərlərin illüstrativ bir anlayışla əks olunmasına şərait yaradır.

***– Rumeysa xanım, İbrahim Səfiyevin sağlığında haralarda və nə qədər sərgisi keçirilib?***

– Əsərlərini bir çox tədbirlər vasitəsilə sənətsevərlərə təqdim edən rəssam bu ənənəni Türkiyənin dörd bir tərəfində, ildə bir neçə dəfə təkrarladığı sərgilərlə davam etdirmişdir.



*İbrahim Səfiyev öz əsərləri qarşısında*

İlk sərgisini 1946-cı ildə İstanbulda açıb. 1950-ci illərdən etibarən Sürix, Münhen, Köln, Frankfurt, Bonn, Vyana, Roma, Paris, Marsel, Afina və digər şəhərlərdə, təxminən, on il ərzində həm araşdırmalar apararaq, həm də sərgilərini təşkil edərək adını və əsərlərini Türkiyədə və xaricdə əbədiləşdirmişdir. Beləliklə, həyatını bütünlüklə rəssamlığa həsr edən sənətkar ərsəyə gətirdiyi əsərləri sayəsində müasir Türkiyə rəssamlığında yüksək uğurlarını dəfələrlə sübut etmişdir. Təəssüf ki, belə bir həyat eşqi ilə dolu bir rəssam 1983-cü ilin 6 yanvar tarixində, özünün 100-cü fərdi sərgisinin açılış gününün axşamı dünyadan köçmüşdür. İbrahim Səfiyev aramızdan ayrılsa da, onun əsərləri rəssamlıq sənətimizdə ölümsüzlük qazanan abidələr kimi daim yaşayacaqdır. Həm də ona görə ki, o, bir çox tələbə də yetişdirmişdir. Onlardan biri də məşhur ingilis rəssamı Conson Baker idi.



***– Son olaraq oxucularımıza nə demək istərdiniz?***

Bir tədqiqatçı istər-istəməz tədqiq etdiyi adama vurulur. Mən də bu rəssamın heyranı kimi, bir gün onun doğulduğu Naxçıvanda sizinlə yenidən görüşməyi arzu edir, o yerlərə salamımı göndərirəm.

*P.S. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2018-ci il 17 oktyabr tarixdə "Görkəmli rəssam İbrahim Səfiyevin 120 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalandığını eşidən Rumeysa xanım bununla bağlı sevincini də oxuculara çatdırmamı istədi:*

– Anadan olmasından 120 il keçməsinə baxmayaraq, Naxçıvan Muxtar Respublikasında bu cür görkəmli rəssama dövlət tərəfindən diqqət və qayğı göstərilməsi tədqiqatçı kimi məni də çox sevindirdi. Belə ki, tədqiqatçılar, ayrı-ayrı ziyalılar, incəsənətlə, xüsusən rəssamlıqla məşğul olan, maraqlanan hər kəs İbrahim Səfiyevi daha yaxından öyrənməyə çalışacaq. Həmçinin onunla bağlı istər Azərbaycanda, onun Naxçıvan Muxtar Respublikasında, istərsə də Türkiyədə ətraflı araşdırmalar, tədqiqatlar aparılacaq, yeni fotolar, sənədlər mütləq üzə çıxarılacaq. Bu həm İbrahim Səfiyevin akademik səviyyədə öyrənilməsinə şərait yaradacaq, həm də bizim kimi gənc tədqiqatçılar üçün bir çox yeni mənbələrin aşkara çıxarılması ilə əlamətdar olacaqdır. Bu mənada, həmin sərəncam mühüm əhəmiyyət kəsb edir.

***Müsahibəni hazırladı:* Elxan YURDOĞLU**
***Naxçıvan - Əskişəhər - Naxçıvan***

Jurnalistin qeydləri

# Dünya paleontologiyasının şah əsəri

## və ya əcdadlarımızın sirli məskəni Qazma mağarasına yolçuluqda gördüklərim

***Tarixçi olmasam da, tarixə marağım hər zaman olub. Bu marağın sözlə ifadəsinə imkan verən peşəmə həm də ona görə minnətdaram ki, mənə doğulub boya-başa çatdığım Naxçıvanımın hər qarışını gəzib-dolaşmaq, tanımaq fürsəti verib. Elə bu maraqdan irəli gəlir ki, çoxdan görmək arzusunda olduğum Naxçıvanın özü qədər qədim, insanın ilk yaranışından təbiətə adaptasiyasını formalaşdıran, qədim bir tarixi dövrün çox məqamlarını özündə sirr saxlayan Qazma mağarasına da səfərimi, nəhayət ki, bu günlərdə reallaşdıra bildim.***

Qazma mağarası haqqında elmi ədəbiyyatlarda, eləcə də digər mənbələrdə o qədər də geniş məlumat yoxdur. Bu qədim insan məskəninə yolçuluqda yaddaşımdakı məlumatları artıra bilməyəcəyimdən də əmin idim. Ancaq mənim üçün əsas olanı əcdadlarımızın bu daş yaddaşı ilə üz-üzə qalmaq, "bu səssiz tarixin" ecazkar aurasını hiss etmək idi. Və əvvəldən planlaşdırdığımız kimi mağaraya daha yaxın məsafədə olan Şərur rayonunun Tənənəm kəndindən yox, Kəngərli rayonunun Qarabağlar kəndi istiqamətindən gedəcəkdik. Elə getdik də... Məqsədimiz yol boyunca hər qarışının özünəməxsus adı olan bu yerlərin dərətəpəsi, qayası, çölü-düzəni haqqında həm də oxucularımıza məlumat vermək idi. Bunun üçünsə mənə kömək edəcək bu yerlərin hər daşı, qayası haqqında məlumatlı olan bələdçi yoldaşım, Qarabağlar kəndindən olan, həyatının çox hissəsini çobanlıqla keçirən Dadaş Dünyamalıyev idi. Bu yolu qət etmək üçün isə ən münasib nəqliyyat vasitəsi olan atdan istifadə etdik. 44-45 yaşlarında olan müsahibim, adətən, yaz aylarında kənddən sürünü çıxarar, yerə qar düşənədək çöllərdə olar, vacib işi olmazsa, yalnız həftədə bir gün kəndə gələr, dincələr, qohum-əqrəbadan xəbər tutar. Elə bizim Qazma mağarasına getmək istəyimizi də əvvəlcədən danışdığımız kimi, onun kənddən çölə gedəcəyi günlə razılaşdırmışdıq. Nəhayət, bu payız günlərinin birində istəyimizi reallaşdırırıq. Çoban Dadaşın bizi müşayiət etməsi ilə yola çıxırıq. Yolumuz uzaq, varacağımız nöqtə isə təkcə Qazma mağarası deyildi, mağaradan da üzüyuxarı qalxaraq Şəmdin dağının ətəklərinə qədər gedəcəkdik.



Qazma mağarasına gedən yol Qarabağlar kəndinin şimal-qərb istiqamətindədir. Kəndin yuxarı hissəsində sonuncu yaşayış evlərini keçdikdən sonra gedəcəyimiz ünvana doğru yola başlayırıq. Əvvəllər, elə indinin özündə də qonşu Tənənəm kəndinə və əks tərəfə gedib-gələnlər bu yoldan istifadə edirlər. Ancaq bu yollarda nəqliyyatın hərəkəti o qədər də münasib deyil, bəzi hallarda isə məhdudlaşır. Kənddən sonra ilk keçdiyimiz ərazinin adı isə "Xəlilin bağı"dır. Xəlil Qarabağlar kəndindən olub. Deyilənlərə görə, ötən əsrin əvvəllərində burada böyük bir bağ salıb. Ancaq indi həmin bağdan əsər-əlamət yoxdur, sadəcə, boş torpaq qalıb. Bir neçə il bundan əvvəl yuxarıdakı Asnı bulağından üzü bu tərəfə yeni su arxı çəkiləndə kimsə bağın boş qalan torpağından istifadə etmək üçün həvəslənib, ancaq, deyəsən, bu həvəs də uzun sürməyib. Nə isə, bağın ərazisindən keçdikdən, təxminən, 2-3 kilometr sonra bu yerlərin ən məşhur ərazilərindən olan "Süzgünlər" başlayır. "Süzgünlər"in üzərində bir az dayanmaq istəyirəm. Belə ki, ərazidə aparılan tədqiqatlara görə, burada Qarabağlar kurqanları yerləşir. Kurqanların mövcud olduğu ərazi el arasında "Süzgünlər dərəsi" adlanır. Qarabağlar daş karxanasının yaxınlığında yerləşən Süzgünlər dərəsi 5 hektardan artıq daşlıq bir ərazini əhatə edir. Ərazidə daşdan hörülmüş müdafiə divarlarının qalıqları indiyədək qalsa da, kurqanlarla bağlı ilk tapıntılara elə bu yaxınlarda – 2014-cü ildə burada aparılmış arxeoloji tədqiqatlar zamanı rast gəlinib. Belə ki, Süzgünlər dərəsi ərazisində 20-dən artıq müxtəlifölçülü kurqanlar qeydə alınıb. Kurqanların əksəriyyəti həmin dərənin şimalında, atəş meydanının qarşısında aşkar edilib. Şimaldan qərbə doğru bir cərgə ilə uzanan kurqanların ən böyüyünün diametri, təqribən, 20, ən kiçiyinin ölçüsü isə 5 metrə yaxın olub. Bundan əlavə, kurqanların düzülüşündə maraqlı bir ardıcıllıq da diqqət çəkir. Belə ki, hər bir böyük kurqandan sonra daha kiçikölçülü kurqan yerləşir. Kurqanlar arası məsafə 5-10 metr və daha çox aralıqda dəyişir. Təəssüf ki, bu kurqanların böyük əksəriyyətinin kromlexləri vaxtilə kənd əhalisi tərəfindən sökülərək fərdi evlərin tikintisi üçün istifadə edilib. Tədqiqatçıların dərənin başında qeydə aldığı 12 kurqandan bəziləri öz ölçülərinin böyüklüyünə və möhtəşəmliyinə görə, demək olar ki, Naxçıvan ərazisində bənzərinə çox az rast gəlinən kurqan tipləridir. Bunu da əlavə edək ki, aparılan araşdırmalar zamanı Süzgünlər dərəsində iki yaşayış yeri də aşkar olunub. Yaşayış yerlərində dairəvi və dördkünc formada iri və ortaölçülü daşlardan hörülmüş tikili qalıqları qeydə alınıb. Yerüstü material kimi saxsı məmulatları və obsidian parçalarına rast gəlinib. Saxsı parçaları Ovçular təpəsi keramikası ilə çox oxşarlıq təşkil edir. Bu arxeoloji abidədən gəlinən ilkin nəticə budur ki, abidə çox geniş bir ərazini əhatə edir. Burada həm böyük yaşayış yeri, həm də nekropol mövcud olub. Yerüstü materiallara və qeydə alınmış kurqanların formasına görə tədqiqatçılar bu abidənin Tunc dövrünə aid olduğunu bildirirlər.

"Süzgünlər" adının yaranma etimologiyasına heç bir elmi ədəbiyyatda rast gəlməsək də, bəzi mənbələrdə onun adı "Suzqunlar" olaraq yazılıb. Adın yaranma səbəbinə gəldikdə isə kənd əhalisinin dediyi daha çox ağlabatandır. Belə ki, Süzgünlər ərazisində çoxsaylı bulaqlar mövcuddur. Hətta buradakı kiçik təpələrin əksəriyyətinin ətrafından sular süzülərək yer səthinə çıxır. Bunun nəticəsində ətrafda qamışlıq və çəmənlik ərazilər çoxdur. Bəzi qeyri-dəqiq məlumatlara görə, ərazidə 150-dən çox suyu axan və ya sızan bulaq gözü var. Bu bulaqların bir neçəsinin suyundan indi də istifadə olunur, hətta ərazidə bunun üçün bir neçə sututar da yaradılıb. Digərlərinin isə ya suyu çəkilib, ya da yer altında müxtəlif istiqamətlərə axaraq batıb gedib. Müsahibimin sözlərinə görə, 20-25 il bundan əvvəllə müqayisədə buradakı bulaqların suyu xeyli çəkilib. Vaxtilə burada çıxan bulaqlardan sakinlər tərəfindən Qarabağlar kəndinə su xətləri də çəkilib. Əlqəraz, Süzgünlər və ya Suzqunlar çox maraqlı yerdir.

Süzgünlərdən bir az irəlidə isə "Salman gölü" yerləşir. Bu ərazidə bir neçə kiçik sututar – "göllər" yerləşsə də, hazırda bura ordumuzun dağ-təlim mərkəzidir. Bu təlim mərkəzi ittifaq dövründə yaradılıb. İndi isə burada milli ordumuzun əsgərləri xidmət keçirlər. "Salman gölü"ndən sonra isə "Bilici" başlayır. Adi düzəngah, yuxarı hissələrə doğru isə bəzi təpələrlə müşayiət olunan ərazinin niyə bu cür adlandırılmasını dəqiq bilən yoxdur. Ondan 3-4 kilometr sonra başlayan "Ağıl dərəsi"nin də həmçinin. Ancaq hər halda ərazilərin bu cür adlandırılmasının, yəqin ki, nə iləsə bir bağlılığı var. Nəhayət, bir az getdikdən sonra dərə yuxarısı şimala tərəf istiqamətlənirik. Kiçik dağ və təpələrin ortası ilə uzanan qumluq dərə məhz "Qazma dərəsi"dir. Dərənin yatağı bəzi yerlərdə 15-20 metrədək çatır. Yataqda sel sularının gətirdiyi böyük daşlarla bərabər, çox sayda kol ağaclar da var. Üzüyuxarı uzanan dərə ilə səhra üçün nəzərdə tutulmuş avtomobillərlə də getmək mümkündür. Ancaq son günlər yuxarı hissələrdə yağıntının çox olması sel suları ilə gələn qumluğun səviyyəsini xeyli yüksəltdiyindən indilik bu, mümkün deyil. Bunu həmsöhbətim deyir. Bələdçi yoldaşımla söhbət edə-edə, nəhayət ki, mağaranın yanına gəlib çatırıq.

Axşama doğru yaxınlaşdığından havadakı soyuq da hiss olunur. Bir anın içərisində yuxarı dağlıq ərazilərdən aşağıya doğru enən çən dumanı ətrafı tamamilə görünməz edir. Biz isə artıq mağaranın önündəyik. Hava şəraiti səbəbindən mağaranın içərisi qaranlıq olduğundan içərini fənərlə işıqlandırırıq. Artıq dillə ifadəsi çətin olan bu daş yaddaşımızla üz-üzəyik. Susqunluğumuz divarları od-alov tüstüsündən qaralmış, min illərin sehrini özündə saxlayan abidənin sirli aurası ilə bərabər, həm də onun əzəmətindəndir. Mağaranın içərisi dəhliz şəklində uzanır. Hündürlüyü 2 metrə yaxın olar, lakin deyilənlərə görə, mağaranın qurtaracağı ilə girişi arasındakı hündürlük fərqi 10 metrdir. Təxminən, 10-12 metrdən sonra isə içəridə iki qol yaranır. Biz ora qədər getmirik. Həmsöhbətimin sözlərinə görə, daha doğrusu, xalq arasında yayılmış fikirlərə görə, buradan "Damlama" və "Dibək"ə (mağaradan bir neçə kilometr sonra dağlıq ərazilərdə yer adlarıdır) qədər yeraltı yol da uzanır. Hər halda bunu elmi təsdiqi olmayan bir xalq mühakiməsi kimi qəbul edirik. Ancaq məsələ bundadır ki, bu "ibtidai ev" neçə min illər insanlara sığınacaq olub, onları qışın soyuğundan, yayın istisindən, vəhşi heyvanların hücumundan qoruyub. Bəs bu arxeoloji abidə haqqında tarixçilər nə deyir?



*Qazma mağarasından əldə edilmiş nukleuslar*

Əvvəlcə onu qeyd edək ki, qədim Naxçıvan diyarı Cənubi Qafqaz regionunda mağaraların ən çox yayıldığı ərazidir. Bunun bir səbəbi coğrafi relyef amilləri ilə bağlıdırsa, digər səbəbi ərazinin qədim insanların yaşaması üçün əlverişli təbii iqlim şərtlərinə malik olmasıdır. Buna görə də tədqiqatçılar karst mağaralar silsiləsi olan ərazilər içərisində Naxçıvanın yerinin ayrıca olduğunu bildirirlər. Bu qədim abidəni ilk dəfə 1983-cü ildə Azərbaycanın tarixçi-arxeoloq alimləri M.Hüseynov və Ə.Cəfərov Naxçıvan ərazisində arxeologi tədqiqat zamanı müəyyən ediblər. Onlar Ordubaddan Şərur rayonunadək apardıqları kəşfiyyat işləri zamanı Paleolit dövrünə aid olan bu Qazma mağarasını aşkarlayıblar. Buradan çoxlu sayda arxeoloji materiallar tapılıb. 17 mindən artıq heyvan sümüyü, 24 növ fauna qalığı, 874 ədəd daş məmulat məhz bu mağarada aşkarlanıb.



Buradakı hər daşın, hər cizginin öz tarixi var. Qazma mağarasında aparılan tədqiqatlar sübut edib ki, abidə Mustye mədəniyyəti dövrünə aiddir. Bu mədəniyyətin tarixi isə eramızdan 100-90 min il bundan əvvələ gedib çıxır. Bu baxımdan Qazma mağarası təkcə bizim yox, dünya tarixi arxeologiyası üçün böyük əhəmiyyətə malikdir. İbtidai insanın izi olan bu mağaranı dünya alimləri də tanıyır və əhəmiyyətini qəbul edirlər. Məsələn, 2002-ci il sentyabrın 7-dən oktyabrın 1-dək beynəlxalq "İNTAS-2000" proqramına əsasən başda professor Henri dö Lümley olmaqla Avropa ölkələrindən Bakıya gələn 22 alim Azərbaycanın qədim Daş dövrü abidələrindən olan Azıx, Tağlar, Qazma və digər düşərgələrindən tapılmış maddi-mədəniyyət qalıqları ilə tanış olduqdan sonra bu tapıntıların dünya arxeologiya, paleontologiya və paleoantropologiya elmləri üçün müstəsna elmi əhəmiyyət daşıdığını qeyd etmişdir.

Bəli, coğrafi koordinatlarına görə Araz çayından 17, Arpaçaydan 15 kilometr məsafədə, dəniz səviyyəsindən isə 1500 metr yüksəklikdə yerləşən Qazma mağarası Naxçıvanın dünya paleontologiyasına təqdim etdiyi şah əsərdir. Yeri gəlmişkən, Qazma mağarası Naxçıvanın turizm potensialına böyük töhfədir. Dünyanın nadir arxeoloji abidələrindən olan bu mağara tarix həvəskarları və təbiətsevərlər üçün maraqlı obyektlərdəndir. Ümid edirik ki, bu abidənin tanıdılması və daha geniş tədqiqi gələcəkdə Naxçıvanın qədim bir diyar kimi təbliğində böyük rol oynayacaq.

Mağaradan ayrılıb yenidən dərəyuxarı hərəkətə başlayırıq. Bir az getdikdən sonra sis-duman çəkildiyindən dərənin sağ tərəfi istiqamətindəki "cızıqlı təpələr" gözümüzə dəyir. Çoban Dadaş deyir ki, bu yerin adı "Cığal demisi"dir. Çox vaxt adına "Demilər" də deyirlər. Qədim zamanlarda bu təpənin ətəklərində insanlar dəmyə əkin aparıblar. Üstündən neçə illər keçsə də, uzaqdan şırımabənzər həmin əkin yerləri yenə də qalmaqdadır. Bir az getdikdən sonra Şəmdinə çatırıq.

Hava çoxdan qaralıb. İlin bu vaxtında dağlıq ərazilər arana nisbətən çox soyuq olur və bu soyuğu biz də hiss etdik. Artıq axşam olduğundan qoyunların hamısı arxaca salınıb, çoban itləri isə sürünün kənarlarında onlara keşik çəkirlər. Atlarımızı bir kənara çəkib, çobanın köməkliyi ilə yəhərləri çıxarırıq. Bələdçi yoldaşım deyir ki, adətən, at yol gəldikdən sonra tərlədiyindən yəhəri çıxarmaq düzgün sayılmasa da, onu çıxarmalıyıq. Çünki atlar dincələrkən bəzən yerə uzanıb, sağa-sola hərəkət edib yorğunluğunu çıxarmaq istəyir. Bu zaman isə üstündəki yəhər qırıla bilər. Ancaq soyuq olmasın deyə, biz atların belinə təri soyuyana qədər bir kiçik döşəkçə və ya adyal salırıq. Üstündən bir az keçdikdən sonra yeməyimizi yeyir, çobanlarla çay içə-içə söhbət edirik. Çoban Dadaş bildirir ki, Şəmdin ərazisi uzaq keçmişdən yurd yeri olub. Vaxtilə burada insanlar məskən salıb yaşayıblar. Olduğumuz yerdən, təxminən, 1,5 kilometr sonra təpənin arxasındakı düzəngahda qədim yaşayış evlərinin izləri də qalmaqdadır. Yerdən 15-20 santimetr hündürlükdə qalmış daş evlərin divarlarının qalıqları bu ərazinin yaşayış üçün əlverişli olduğunu göstərir. Müsahibim deyir ki, vaxtilə buradakı ətraf ərazilərdə bulaqlar da olub. Ancaq indi yalnız birindən su gəlir. Onun da gözəsini bu il təmizləyib çıxarmışıq. Bir az yuxarıda isə "Susuz" deyilən ərazi var. Düzəngah bir sahədir. Yəqin su olmadığına görə belə adlandırıblar. Orada sürü saxlamaq üçün daş divarlarla əhatə olunmuş iki böyük arxac var. Birinə "Usubun arxacı", digərinə isə "Mamoşun arxacı" deyirlər. Hər ikisi Qarabağlar kəndindən olub. Müharibədən əvvəl (II Dünya müharibəsini nəzərdə tutur) onlar ilboyu burada qalıb heyvan saxlayıblar. Elə arxacların adları da onlardan qalıb.

Çoban Dadaşdan uşaq vaxtımdan yaddaşımın bir küncündə ilişib qalmış təyyarə hadisəsini soruşuram. Demək, ötən əsrin 80-ci illərində bir qəza nəticəsində Şəmdin ərazisinə təyyarə düşmüşdü. İnsan tələfatı ilə nəticələnən bu qəzada yerə düşən təyyarənin bir hissəsi ekspertiza üçün aparılsa da, digər hissələri elə oradaca qalmışdı. Həmsöhbətim bildirdi ki, təyyarə hazırda oturduğumuz yerdən, təxminən, bir kilometr aralı düşmüşdü. Onun qalıqları və bu hadisəni bildirən barelyef lövhə son illərədək qalırdı. Uzun müddətdir, o tərəflərə yolum düşmürdü. Bu il oradan keçəndə gördüm ki, onları da aparıblar.

*Söhbətimiz gecə yarısına qədər çəkir. Nələrdən danışmırıq ki? Şəmdinin hər qarışı tarix qoxan yerlərindən tutmuş gərməşov, məlhəm, əppəkli, doqquzdon kimi çöl ağaclarının bitdiyi kiçik tala meşələrinədək. Və təbii ki, ömür-gününü bu dağlarda keçirən dostumuzla çobanlıq peşəsinin incəliklərindən də danışırıq. El malının əmanət edildiyi bu peşə sahibləri haqqında isə növbəti yazımızda...*

Səbuhi HƏSƏNOV

# Muxtar respublikamızda uşaq futbolunun inkişafı istiqamətində atılan addımlar

## Uşaqların bu sahəyə cəlbi üçün nə edilməlidir?

***Uşaq futbolu – hazırda dünya ölkələrində futbolun inkişafına gedən yol məhz burdan başlayır. Qazanılan nəticələrdən, əldə edilən uğurlardan da görmək mümkündür ki, uşaq futbolunun inkişafına diqqət və qayğıyla yanaşan ölkələrdə bu idman növünün tərəqqisi pik nöqtədədir. Uşaqlarımızın həyatında futbol məhəllədə arxasınca qaçdıqları top, daha sonra bacarıqlarını nümayiş etdirə biləcəkləri bir sahədir. Bu sahənin də digərləri kimi müəyyən problemləri var və bunların aradan qaldırılması üçün muxtar respublikamızda mühüm addımlar atılır. Bəs bu problemlər nədən ibarətdir? Yaradılan infrastruktura və göstərilən dövlət qayğısına baxmayaraq, futbol həyatında ilk addımlarını atan uşaqların bu sahədə irəliləyə bilməməsinin səbəbi nədir?***

*Valideyn amili*



Araşdırmalar göstərir ki, uşaqların futboldan uzaqlaşmasının iki səbəbi var: valideyn və təhsilə yönləndirilmə. İlk olaraq valideyn problemindən başlayaq. Bəzən uşaqların inkişafı üçün atdığımız addımlar onlara kömək etmək əvəzinə, bumeranq rolu oynayır və onların futboldan uzaqlaşmalarına səbəb olur. Əslində, burada valideyni qınaq obyektinə çevirmək mütləqdir. Səbəbi: əgər valideyn övladında futbola maraq oyatmaq, onun düzgün bir idmançı kimi yetişməsini istəyirsə, o zaman bu sahəni dərindən bilən mütəxəssislərin fikirlərini öyrənməlidir. Çünki o, kiçik yaşlarından etibarən keçirilən məşqlərə, uşaqların peşəkar futbola hazırlanmasına da önəm verməlidir. İndi, demək olar ki, bəzi valideynlər futbola maraq göstərməyən övladlarını zorla bu idman növü ilə məşğul olmağa vadar edirlər. Psixoloqların fikrincə, belə hallarda valideyn sözü uşaqda müəyyən psixoloji hallar yaradır və onun məşq zamanı fikri və istəyi başqa olur. Digər tərəfdən futbola marağı olan uşaqların idman və təhsillə plansız məşğul olması hər iki sahənin uğursuzluğu ilə nəticələnə bilər. Ümumiyyətlə, uşaqları təhsildən yayındırmamaq şərtilə onları futbola necə yönləndirmək olar?

Aparılan araşdırmalar göstərir ki, 6-8 yaşlarındakı uşaqlar futbol oynadıqlarını artıq dərk edirlər. Bu zaman onların məktəb müəllimləri (və ya idman müəllimləri) uşaqlara qalib gəlməyin o qədər də önəmli olmadığını aşılamalıdırlar. Çünki bu yaşda uşaqlar bacarıqlarını inkişaf etdirməklə yanaşı, oyundan zövq alır, həmçinin rəqabət etməyi öyrənirlər. Bu mərhələdən sonra uşaqlar 8-10 yaşında komanda oyunlarında oynamağa özlərini hazır hiss edirlər. Çünki psixoloqların təbirincə desək, uşaqda mübarizə ruhu formalaşır, komandanın bir üzvü olduğunu dərk edir. Artıq bu mərhələlər Avropanın bir çox ölkəsində tətbiq edilib və regionlarda istedadlı uşaqların üzə çıxması ilə nəticələnib.

Muxtar respublikamızda da futbolun inkişafı üçün hər bir şərait mövcuddur: məktəblərdə idman zalları yaradılıb, mini-stadionlar tikilib, rayon və kəndlərdəki stadionlar əsaslı təmir olunaraq uşaq, yeniyetmə və gənclərin ixtiyarına verilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi uşaqların futbola cəlbi istiqamətində mühüm addımlar atıb. İlk olaraq Naxçıvanda futbolun inkişaf strategiyasının əsasını təşkil edən uşaq futbolundan başlanılıb. Uşaqların əylənməsi və gələcəkdə peşəkar futbolçu olmaları üçün “Araz-Naxçıvan” Peşəkar Futbol Klubunun nəzdində uşaq futbol məktəbləri fəaliyyətə başlayıb. Daha dəqiq desək, məktəblərin iş qrafikləri genişləndirilib, onların məşq etmələri üçün zəmin yaradılıb. 10, 11, 12, 13 və 14 yaşlılardan ibarət formalaşan komandalarda hazırda 250-dən çox uşaq futbolun sirlərini öyrənir. Məktəblər təkcə Naxçıvan şəhərində deyil, eyni zamanda Şərur rayonunda da fəaliyyət göstərir. Rayonun Mahmudkənd və Aralıq kəndlərinin stadionunda həftənin 5 günü keçirilən məşqlərdə qonşu kəndlərin də uşaq futbolçuları iştirak edirlər. Məqsəd isə istedadlı uşaqları üzə çıxarmaq və onların asudə vaxtlarını səmərəli təşkil etməkdir. Qarşıdakı aylarda nazirlik tərəfindən digər rayonlarda da uşaq futbolunun inkişafı üçün komandalar yaradılacaq. Bu həm də rayon və kəndlərdə olan uşaqlar arasında əlaqələrin qurulmasına imkan verəcək.

*Məşqçilər nə düşünür*

Bəs uşaq futbolunda məşqçilərimiz hansı proqram əsasında işləyirlər? Onlar yaradılan şəraitdən necə istifadə edirlər? Sualımızı “Araz-Naxçıvan” futbol klubunun uşaq məşqçisi İntiqam Rəhimov belə cavablandırdı: “Hazırda uşaq futbolunun inkişafı üçün hər bir şərait yaradılıb. Xüsusilə Gənclər və İdman Nazirliyi mütəmadi olaraq bizimlə maraqlanır. Həftənin 5 günü məşqlərimiz olur və hər şənbə günü isə muxtar respublika stadionunda uşaqlar arasında yoldaşlıq görüşləri keçirilir. Hər yaş qrupuna daxil olan istedadlı uşaqlarla daha çox məşğul olur, onlarla məşq saatlarını artırırıq. Həmçinin Şərur rayonunda olan komandalarımızla ayda 2-3 dəfə bir yerdə məşq keçirik. Müəyyən proqramlar var ki, bunlar uşaqların futbolçu kimi inkişafı ilə yanaşı, cəmiyyət üçün sağlam fərd olaraq formalaşmasında da mühüm rol oynayır. Uşaqların fərqli psixoloji-fizioloji xüsusiyyətləri nəzərə alınaraq onların etdikləri hərəkətləri tərifləyib cəsarətləndirmək lazımdır. Çünki uşaqların enerjisi və öyrənmək istəyi onların futbolun bütün qaydalarını və sirlərini, məşqçilərin verdiyi tapşırıqları daha tez qavramalarını təmin edir. 11-14 yaşlarındakı uşaqlar bir qədər həssas olurlar. Buna görə də müəllimlər onlarla ünsiyyəti məhz bu yaş dövrünə uyğun qurmalıdırlar. Həmçinin yetkinlik dövründə uşaqlar arasında fərqliliklər də ortaya çıxır. Valideynlərə məsləhətim o olardı ki, övladlarının doğru istiqamətdə inkişaf etməsinə kömək göstərin və idmandan uzaqlaşdırmayın”.

“Araz-Naxçıvan” PFK-nın baş məşqçisi Sakit Rzayevin fikrincə isə uşaqların futboldan uzaq düşməməsi üçün müəyyən dövrlərdəki məşq proseslərinə diqqət etmək vacibdir: “Dünya praktikasında olduğu kimi uşaqlarla məşq edərkən, ilk növbədə, onların bundan zövq almalarını təmin etmək lazımdır. Müasir futbolda uşaqların uzun müddətə planlaşdırılan məşq proqramları var. Öncə təməl hərəkətlərin inkişafı dövrü olur (5-11 yaşlılar arasında). 11 yaşdan 14 yaşa kimi intensiv məşqlərə hazırlıq məqsədilə müəyyən edilmiş təlimməşqlər keçirilir. Növbəti iki ildə isə uşaqlar yarışlara hazırlanır. 17 yaşdan sonra isə məhsuldarlığı artıran məşqlərə start verilir ki, bu da onların peşəkar kimi formalaşmasına şərait yaradır. Bunlarla yanaşı, məşqçi uşaq seçimində də yanılmamalıdır. Bəzən düzgün keçirilməyən məşqlərdə istedadlı uşaqlar itib-batır. Buna görə uşaqların yaş dövrü keçidlərinə baxmaq lazımdır. Onların bioloji olaraq böyüməsi də nəzərə alınmalıdır. Uşaqların sürəti, çeldliyi onların fiziki böyümə və inkişafından bu və digər dərəcədə asılı olur. Böyümə ilə əlaqədar fiziki tutumdakı dəyişikliklər məşq məhsuldarlığına önəmli dərəcədə təsir edir. Elə futbol mütəxəssisləri də qeyd edirlər ki, uşaqların bu dönəmdəki dəyişikliklərini ciddi şəkildə izləmək lazımdır. Adətən, bu, 13-14 yaş arasında olur”.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi İdman Tibb Mərkəzinin baş həkim əvəzi Eldəniz Qurbanov futboldakı tələbləri uşaqlarda gedən böyümə ilə əlaqələndirir: “Uşaqların məşq edərkən sağlamlığını qorumaq və mümkün zədələrin qarşısını almaq yollarını bilmək vacibdir. Buna görə uşaqları məşqə cəlb etmədən öncə onların fizioloji və fiziki göstəricilərini yoxlamaq lazımdır. Əks-təqdirdə yüklənmələr futbolçuda fəsadlar törədə bilər. Uşaqları peşəkar futbolçu olmaq üçün yönləndirərkən onun fiziki, sümük, əzələ-sinir sistemi, hormonal, duyğusal və psixoloji inkişafına nəzər yetirmək mütləqdir. Onların yaşı irəlilədikcə futbolun tələbləri də dəyişir. İdman həkimləri, adətən, müəyyən yaş dövrlərində uşaqların ürək döyüntülərini müəyyənləşdirərək onlar haqqında yekun qərara gəlirlər. Məsələn, 11-13 yaşlarında uşaqların keçirilən oyun zamanı ürək döyüntüləri orta hesabla 160-170 atış/dəqiqə arasında dəyişir. Təbii ki, bunun da öz kriteriyaları var, peşəkar və ya həvəskar futbolçular arasında fərqlər də mövcuddur. Peşəkar futbolçular futbolu, eyni zamanda “başları ilə oynadıqlarına” görə onlarda bir qədər yüksək olur. Bununla yanaşı, 90 dəqiqə oynanılan futbol matçı zamanı uşaqların nəbzi 85 olur. Yaş yüksəldikcə, ürək ritmi oyunun şiddətinə görə artır”.

*Göründüyü kimi, muxtar respublikamızda uşaq futbolunun inkişafı üçün hər bir şərait yaradılıb, Gənclər və İdman Nazirliyi tərəfindən bu sahənin kütləviləşməsi üçün işlər görülür. İndi çatışmayan yeganə məsələ Təhsil Nazirliyinin uşaqları təhsildən ayırmadan bu istiqamətdə müəyyən layihələr hazırlaması və valideynlərin futbol yönündə fikirlərini dəyişməsidir.*

**Ceyhun MƏMMƏDOV**

*Əlahiddə Ümumqoşun Ordunun çətin dağlıq şəraitdə xidmət edən əsgərlərinə növbəti isti qış geyimlərinin təqdim edilməsi münasibətilə tədbir keçirilib.*

# İsti qış geyimləri hərbi hissələrə təhvil verilib

Tədbirdə Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov çıxış edərək bildirib ki, avqustun 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə hərbi hissələr üçün yun corabların toxunması işinin davam etdirilməsi tapşırılıb. Qarşıya qoyulan tapşırığın icrası istiqamətində məhdud fiziki imkanlı 20 qadın tərəfindən toxunmuş 1165 cüt yun corab və 86 yun şərf əsgərlərimizə hədiyyə edilir. O diqqətə çatdırıb ki, 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar, ümumilikdə, 2500 cüt yun corab və 200 yun şərf toxunaraq hərbi hissələrə təhvil verilib.

Əlahiddə Ümumqoşun Ordunun zabiti, polkovnik Vüqar Hüseynov və əsgər Samir Əfəndiyev hərbi qulluqçular adından göstərilən diqqət və qayğıya görə minnətdarlıq ediblər.

Sonda yun corab və şərflər hərbi hissəyə təhvil verilib.

**Nəriman NƏCƏFOV**

# Beynəlxalq Tələbə-Gənclər Həftəsində daha iki yarış keçirilib





“Gənclik” Mərkəzində 10-17 noyabr – Beynəlxalq Tələbə-Gənclər Həftəsi ilə əlaqədar muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrinin əcnəbi tələbələri arasında keçirilən “Azərbaycanı tanı” intellektual oyununa yekun vurulub.

Oyunun keçirilməsində məqsəd əcnəbi tələbələrə xəritə vasitəsilə Azərbaycanın tanıdılması, onların intellektual səviyyəsinin yüksəldilməsidir. İştirakçılar oyunda pazl şəklində olan Azərbaycanın coğrafi xəritəsini daha tez yığmaq üçün yarışıblar.

Yekun nəticəyə əsasən Naxçıvan Dövlət Universitetində təhsil alan əcnəbi tələbələr arasında Sarıhan Şehriban birinci olub. Digər iki pillədə isə Nisa Önal və Salih Encu qərarlaşıblar. “Naxçıvan” Universitetinin tələbələri arasında qalib adını Tarri Riçard qazanıb. Pere Riçard ikinci, Ariful İslam isə üçüncü olublar.

Beynəlxalq Tələbə-Gənclər Həftəsi ilə əlaqədar ali və orta ixtisas təhsili müəssisələrinin qız tələbələri arasında badminton üzrə muxtar respublika birinciliyi də təşkil edilib.

5 komandanın 40-dan çox idmançısının mübarizə apardığı birincilik olimpiya sistemi üzrə keçirilib. Yekun nəticəyə əsasən Naxçıvan Dövlət Universitetinin tələbəsi Çakır Nazlıcan qalib adını qazanıb. Həmin universitetin digər tələbəsi Şəlalə Əsgərova ikinci, “Naxçıvan” Universitetinin tələbəsi Fatma Həmzəyeva isə üçüncü olub.

Qeyd edək ki, qalib komandalar və komanda üzvləri noyabrın 16-da “Gənclik” Mərkəzində keçiriləcək tədbirdə mükafatlandırılacaqlar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Qolbol üzrə yoldaşlıq görüşü



13 noyabr – Beynəlxalq Gözdən Əlillər Günü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının təşkilatçılığı ilə sağlamlıq imkanları məhdud şəxslər arasında qolbol üzrə yoldaşlıq görüşü keçirilib.

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən görüşdə “Naxçıvan” və “Babək” komandaları qarşılaşıblar. Oyun “Naxçıvan” komandasının 8:6 hesablı qələbəsi ilə başa çatıb.

Sonda görüş iştirakçılarına federasiyanın hədiyyələri təqdim edilib.

Yarışın keçirilməsində məqsəd sağlamlıq imkanları məhdud şəxslərin muxtar respublikanın idman həyatına daha fəal inteqrasiyası, habelə onlar arasında idmanın kütləviliyinə nail olunması, komandaların oyun təcrübəsinin artırılması və asudə vaxtlarının səmərəli təşkilidir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Azərbaycan Respublikası Təhsil Nazirliyi

### *Naxçıvan Müəllimlər İnstitutu Pedaqoji fakültənin dekanı vəzifəsini tutmaq üçün müsabiqə elan edir*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin kollegiyasının 15 noyabr 2017-ci il tarixli 5/5 saylı Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları”na əsasən göstərilən vəzifəni tutmaq üçün ali təhsil müəssisəsində kadr hazırlığı profilinə uyğun peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcəyə və ən azı 5 il elmi-pedaqoji təcrübəyə malik şəxslər müsabiqədə iştirak edə bilərlər.

Sənədlər bu elan qəzetdə dərc edildiyi gündən bir ay müddətində qəbul edilir. Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini rektorun adına ərizə ilə birlikdə aşağıdakı ünvana şəxsən təqdim edə və ya göndərə bilərlər.

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 1. Naxçıvan Müəllimlər İnstitutu Telefon: 545-32-02 Rektorluq***

***İtmişdir***

Orucəliyev Əbdüləli İsa oğlunun adına verilmiş MH-0045828 seriyalı çıxarış itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Ramiyyə Əkbərova

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1490. Sifariş № 829